https://doi.org/10.59849/2410-5600.2026.1.115
UOT: 2; 09; 94(479.24)

**Sevinc Rəhnulla**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı şəhəri, İstiqlaliyyət küç., 26*
*e-mail: sevindj.rahnulla@mail.ru*

# QAFQAZ RUHANİ İDARƏSİNİN ŞEYXÜLİSLAMLARININ ELM VƏ TƏHSİLƏ VERDİYİ DƏYƏR

**Xülasə**

Məqalədə Ruhani İdarəsinin Şeyxülislamları olmuş, xalqımızı elm və mənəviyyat nuru ilə maarifləndirmiş alim və maarifçilərin elmə və təhsilə verdiyi töhfələr qısaca araşdırılır.

Qafqaz Ruhani İdarəsinin Şeyxülislamları həyatlarını xalqın savadlı, saf, milli-dini ruhda tərbiyəsinə həsr etmişlər. Onlar həmçinin cəmiyyətin mədəni-maarif, ictimai-siyasi həyatında mühüm rol oynamışlar. Şeyxülislamlar müxtəlif təhsil müəssisələrində təhsillə məşğul olmuş, əhəmiyyətli əsərlər yazmış və xalqa elmi və mənəvi xidmət göstərmişlər.

***Açar sözlər:*** *şeyxülislamlar, elm, təhsil, əlyazmalar*

## Giriş

*XIX əsrin əvvəllərindən etibarən Azərbaycan cəmiyyətində maarifçilik ideyalarının formalaşması mürəkkəb ictimai-siyasi şəraitdə baş vermişdir. Rusiya imperiyasının müstəmləkə siyasəti müsəlman xalqlarının milli və dini kimliyinin qorunmasına deyil, onların imperiya maraqlarına uyğun şəkildə tərbiyə olunmasına xidmət edirdi. Rusiya hakim dairələri müsəlmanların dünyəvi təhsil almasına həmişə mane olub, mollaxanalarda, müsəlman ruhani seminariyalarında ümumi təhsil fənlərinin keçirilməsini qadağan etmiş, onları daim dövlət nəzarəti altında saxlamışlar. Bu baxımdan təhsil sistemi ciddi nəzarət altında saxlanılır, dünyəvi elmlərin tədrisi məqsədli şəkildə məhdudlaşdırılırdı. Mədrəsələrdə əsasən dini fənlər tədris olunur, ana dilində sistemli təhsil isə ya tamamilə qadağan edilir, ya da formal xarakter daşıyırdı.*

*Çar üsul-idarəsi mədrəsələrin açılmasına icazə verərkən yalnız dini dərslər: Quran, hədis, şəriət və ərəb, fars, rus dillərinin ümumi şəkildə tədrisinə razı olmuşdur. İslam tarixi, coğrafiyası, hüququ, əxlaqı kimi fənlərin tədrisi qəti olaraq qadağan olunmuşdu. Gələcək nəslin İslam dünyası ilə birlik ruhunda deyil, Rus dövlətinə borclu, müti və kölə ruhunda tərbiyə olunması imperiyanın maraq dairəsində idi. Bu dövrdə nə hazırlıqlı Azərbaycan dili müəllimləri, nə də şagirdlər üçün sövti üsulla yazılmış əlifba kitabı vardı. Köhnə tipli məktəblərdə isə qədim ərəb və fars dilində yazılmış dərsliklər şəklində tərtib edilmiş kitablardan istifadə olunurdu. Azərbaycanın qabaqcıl maarifçi və demokratik fikirli ziyalıları, görkəmli müəllimləri ana dilində məktəb açmaq, bu məktəblər üçün Azərbaycan dilində dərsliklər tərtib etmək, ana dili tədrisinin metodikasını yaratmaq, əlifba, orfoqrafiya və bu kimi bir sıra mühüm məsələləri həll etmək üçün uzun illər boyu bütün təzyiq və məhdudiyyətlərə baxmayaraq, yorulmadan mübarizə aparırdılar.*

*Belə bir şəraitdə Azərbaycan ziyalıları üçün maarifçilik yalnız təhsil məsələsi deyil, eyni zamanda milli varlığın qorunması və inkişafı uğrunda mübarizə idi. Ana dilində məktəblərin açılması, dərsliklərin hazırlanması, əlifba və orfoqrafiya problemlərinin həlli bu mübarizənin əsas istiqamətlərini təşkil edirdi. Maarifçilik fəaliyyəti həm dünyəvi ziyalılar, həm də açıq fikirli ruhani təbəqə tərəfindən aparılırdı ki, bu da Azərbaycan maarifçiliyinin spesifik xüsusiyyətlərindən biridir.*

**Ali dini zümrənin maarifçilikdə rolu**

Qafqaz Müsəlmanları Ruhani İdarəsinin rəhbərləri olan Şeyxülislamlar təkcə dini liderlər kimi deyil, eyni zamanda ictimai xadim və maarifçilər kimi çıxış etmişlər. Onların bir qismi klassik dini təhsillə yanaşı, astronomiya, riyaziyyat, tarix, ədəbiyyat və pedaqogika kimi sahələrdə də biliklərə malik olmuşdur. Bu hal Şərq-islam təhsil ənənəsinin geniş dünyagörüşə əsaslandığını göstərir.

Əli bəy Hüseynzadənin babası olmuş ilk şeyxülislam Axund Məhəmmədəli Hüseynzadə dini vəzifəsi və fəaliyyəti ilə yanaşı tərcüməçiliklə məşğul olmuş, ərəb və farscadan kitabları Azərbaycan və rus dillərinə çevirmişdir. Onun "Ruslar üçün İslama dair sorğu kitabı" o dövrün qiymətli əsərlərindən idi. İslam fəlsəfəsi, tarix, astronomiya, riyaziyyat və başqa elmləri dərindən bilən Şeyx "Ağızdan-ağıza keçmiş hədislər", "İslamın möcüzələri", "Qəlb qidası" və bir çox əsərlərin müəllifidir [5, s.75-76].

Şeyxülislam Fazil İrəvaninin yaradıcılığı araşdırılarkən onun dövrünün ən görkəmli yaradıcı şəxsiyyətlərindən biri olduğu aydınlaşır. O, bir neçə ədəbi, tarixi və dini səciyyəli əsərlərin müəllifidir. Əsərləri bir çox dillərə tərcümə olunmuş və Təbrizdə, Peterburqda, Berlində, Parisdə, İrəvanda çap olunmuşdur [7, s.112-120].

Fazil İrəvani 1843-cü ilə qədər, xüsusilə də İsfahan və Təbriz şəhərlərində axundluq etdiyi dövrlərdə bədii yaradıcılıqla məşğul olmuşdur. Gənc yaşlarında yazdığı "Qızılgül və bülbül" povesti məhz İrəvanda Azərbaycan dilində qələmə alınıb və əlyazma şəklində Yerevanda Qədim Əlyazmalar İnstitutunda saxlanılır. Bu əsər Avropa dillərinə bir neçə dəfə tərcümə olunaraq müxtəlif illərdə nəşr olunmuşdur. [5, s.81]. Erməni millətindən olan Xocens Marker Geğamyan əsəri öz adına çıxararaq 1812-ci ildə Sankt-Peterburqda kitab halında rus və erməni dillərində çap etdirmişdir. Vajja Defloribalini 1826-cı ildə Parisdə "Qızılgül və bülbül" povestini fransız dilinə, Yozef Fon Hammer isə 1832, 1833-cü illərdə 2 dəfə almancaya tərcümə edərək çap etdirmişlər. "Qızılgül və bülbül" povestinin geniş oxucu kütləsi arasında maraqla qarşılandığını görən Geğamyan bəyanat verərək əsərin ona məxsus olduğunu bildirir. Avropa və Qafqazda aparılan araşdırmalarla yanaşı, "əsəri tərcümə edərək hissə-hissə "Anahit" jurnalında çap etdirən Arşaq Çobanyan da təsdiq etmişdir ki, "Qızılgül və bülbül" Fazil İrəvaniyə məxsusdur" [5, s.81].

Xüsusilə Fazil İrəvaninin "Qızılgül və bülbül" əsərinin Avropa dillərinə tərcümə olunması Azərbaycan ədəbi fikrinin beynəlxalq miqyasda tanınmasının erkən nümunələrindən biridir. Əsərin rus, erməni, fransız və alman dillərində çap olunması, onun Şərq romantik ədəbiyyatının Avropa oxucusu üçün maraqlı olduğunu sübut edir. Bu fakt eyni zamanda Azərbaycan ədəbiyyatının XIX əsrdə artıq qapalı bir mühitlə məhdudlaşmadığını, ümumbəşəri ədəbi prosesə daxil olduğunu göstərir.

Lakin əsərin müəllifliyinin saxtalaşdırılması cəhdləri həmin dövrdə Azərbaycan mədəni irsinin sistemli şəkildə mənimsənilməsi problemini də üzə çıxarır. Bu baxımdan, Arşaq Çobanyan kimi tədqiqatçıların Fazil İrəvaninin müəllifliyini təsdiqləməsi mühüm elmi və tarixi əhəmiyyət daşıyır.

Ruhani idarəsinin üçüncü şeyxülislamı olan Əli bəy Hüseynzadənin əmisi Əhməd Hüseynzadə də yüksək vəzifə sahibi və dövlət məmuru olmaqla yanaşı, Azərbaycan elminin inkişafında böyük xidmətləri olan maarifpərvər ziyalı kimi də nüfuz sahibi idi. Dövrünün görkəmli islamşünas alimi dünyəvi elmləri də yaxşı bilmiş və bir neçə fənnə dair dərsliklər yazmışdır. Dini əsərləri ilə yanaşı "Dilguşə", "Tərbiyətül-ətfal", "Müəllimül-ətfal-fi-təriqe təlimil-ətfal", tarixə dair "Bəsaül-nas fi-məmləkətil-Qafqaz" və ədəbiyyata dair "Tarixi-ədəbiyyati-türk" adlı əsərlərin müəllifi kimi məşhur idi. Bu əsərlərin bəziləri – "Dilguşə" ("Ürək açan", 1870), "Tərbiyətül-ətfal" ("Uşaqların tərbiyəsi", 1870), kitabça şəklində Tiflisdə litoqrafiya üsulu ilə çap edilmişdir. Onun "Tarixi-ədəbiyyati-türk" əsəri türk ədəbiyyatı tarixinə aid yazılmış ilk mənbə kimi etibarlıdır. Günümüzədək gəlib çatmış bu əsərinin naqis əlyazması AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutunda mühafizə olunur [10]. Türk əqvamının başlıcaları" adı altında türk xalqlarının adları o cümlədən, "Altay türkləri", Qazaklar", Qaraqalpaqlar", "Rusiya cənub-şərqindəki türklər", "Qərb tatarları", "Həştərxan tatarları", "Başqırdlar", "Qazan və Balqariya tatarları", "Saratlar", "Özbəklər", "Azərbaycan və Qafqaz türkləri", "Osmanlılar" və s. adlar qeyd olunmuşdur. Növbəti vərəqdə "Taciklər", "Uyğurlar" və başlıqlar altında bu xalqların dili və ədəbiyyatı haqqında məlumatlar öz əksini tapır. "Türklərin

islamı qəbul etməsi", "Cığatay ədəbiyyatının altun qərni" başlıqları altında verilən məlumatlar bu gün də çox aktualdır [8].

Ə.Hüseynzadə İraqda təhsil alarkən təbiət elmlərinin, xüsusilə astronomiyanın mükəmməl öyrənməsinin nəticəsi idi ki, Qafqazda ilk dəfə olaraq illəri hicridən miladiyə çevirmək üçün sinxronik təqvim cədvəli hazırlayaraq Tiflisdə çap etdirmişdir.

Açıq fikirli, demokratik əqidəli bir ziyalı olan Ə.Hüseynzadə Mirzə Fətəli Axundovla dostluq etmiş, Azərbaycan xalqının inkişafı və tərəqqisi uğrunda səmərəli işlər görmüşdür. Axundovun məktublarında Şeyx Əhmədin adı tez-tez çəkilmiş, onunla çiyin-çiyinə yeni əlifba uğrunda mübarizə apardığından söhbət açılmışdır [2, s. 122, 131, 136, 138, 140. 142, 145, 153, 162]. 1871-ci il mayın 20-də Şahzadə Cəlaləddin Mirzəyə yazdığı məktubdan: *"...qeyd etdiyim şaniyüksək dostum, Qafqazın Şeyxülislamı Axund Molla Əhməd Hüseynzadədir... Müxtəlif elmlər və fənlər sahəsində-astronomiya, coğrafiya, riyaziyyat, təbiət, tarix, hikmət və xüsusilə fiqh elmi sahəsində bütün Qafqaz ölkəsində Şeyxülislamın tayı-bərabəri yoxdur. Bununla belə, o, filosof təbiətli və liberal məsləkli bir adamdır. Onun fəzilətləri haqqında fəzilətli ağamız Mirzə Yusif xandan soruşa bilərsiz. Hər gecə Şeyxülislam cənabları ilə bir yerdə əyləşərək söhbət edirik"* [2, s.122-125].

Qori Müəllimlər Seminariyasında Azərbaycan şöbəsinin açılması üçün M.F.Axundovla yanaşı Ə.Hüseynzadənin də xidmətləri olmuşdur. Əhməd Hüseynzadə vəzifə səlahiyyətlərini xalqına xidmətə həsr etmişdir. Qasım bəy Zakirə yardım etmiş, onun həbsdən azad olunmasına köməklik göstərmişdi. 1878-ci ildə Seyid Əzim Şirvaniyə siyasi etimadsızlıq göstərilərək müəllimlikdən kənar edilərkən yenə məsələyə Şeyxülislam özü müdaxilə etmiş, onun müəllimliyə qayıtmasına və etimadsızlığın ləğvinə nail olmuşdur. Bunun müqabilində S.Ə.Şirvani Molla Əhməd Salyaniyə qəsidə həsr etmişdir. Bu qəsidə S.Ə.Şirvaninin 1897-ci ildə Təbrizdə daş basmaxanasında nəşr olunan "Divan"ının birinci hissəsində çap olunmuşdur [4, s.166].

1878-ci ildə seçkiyə əsasən Sankt-Peterburq Universiteti Şərq fakültəsinin fars dili və ədəbiyyatı kafedrasına fars dili müəllimi vəzifəsinə seçilmiş Axund Mirzə Həsən 5 sentyabr 1885-ci ildə Qafqazda mülki hissə üzrə baş rəisliyin təqdimatına və imperatorun razılığına əsasən Zaqafqaziya şeyxülislamı və Şiə Ruhani İdarəsinin sədri seçilib.

Bu dövrdə tədris məqsədilə bir sıra kitablar nəşr olunmağa başlamışdır. Zaqafqaziyanın dövlət məktəblərində təhsil alan müsəlman gənclərin bu dərsliklərə ehtiyacı çox böyük idi. Tərtib olunmuş belə dərslik və dərs vəsaitlərinin müəlliflərindən biri də Əbdüssalam Axundzadə olmuşdu. Ə.Axundzadənin tədris məqsədi ilə 1893-cü ildə qələmə aldığı "Müqəddəs peyğəmbərlər tarixi", 1894-cü ildə tərtib etdiyi "Xətti-təliq və nəstəliq" adlı sərməşq belə kitablardandır. O, həm müxtəlif mədrəsələr və seminariyada tədrislə məşğul olduğu zaman, həm də şeyxülislam kimi fəaliyyət göstərdiyi vaxtlarda elmi-pedaqoji, dini-etik əsərlər yazıb nəşr etdirmişdi.

Ağa Məmməd Abdullayev *"Azərbaycan dilinin tədrisi tarixindən" kitabında XIX əsrin əvvəllərindən başlayaraq Azərbaycan dilinə aid nəşr olunan dərsliklər və dərs vəsaitlərini tərtib etmişdi. Bunların içərisində Ə.Axundzadənin "Sərməşq" kitabçası da yer alıb"* [1, s.12].

İsmayıl bəy Qaspıralı 1901-ci ildə qələmə aldığı "Məbadi Təməddüni İslamiyani-i Rus" (Rusiya müsəlmanlarının mədəniləşməsinin başlanğıcı) adlı yazısında Rusiya müsəlmanlarının tərəqqisində mühüm rol oynayan əsərləri nişan verir və Qafqaz müsəlmanlarının şeyxülislamı Əbdüssalam Axundzadənin "Ümdətul-əhkam" və "Tarixi-müqəddəsi ənbiya" əsərlərini həmin kitabların sırasında təqdim edir [3, s.159].

Axundzadənin əsərlərinə yüksək qiymət verən professor Xeyrulla Məmmədov öz məqaləsində qeyd etmişdir ki, *"üslubunun aydınlığı və dilinin sadəliyi ilə seçilən Əbdüssalam Axundzadənin əsərləri F.Köçərli, C.Məmmədzadə, N.Nərimanov, S.S.Axundov kimi ziyalıların islam tarixinin və şəriət qanunlarının, qrammatikanın əsaslarını öyrənməsində misilsiz rol oynamışdır"* [6].

Misir Mərdanov "Azərbaycan təhsil tarixi" kitabında elm, təhsil və maarif yolunda böyük xidmətləri olan, ömrünü bu şərəfli işə həsr edən ziyalıların həyat və yaradıcılığını işıqlandırmışdır. O, bu kitabında böyük hörmətlə Ə.Axundzadəni yad etmişdir.

1876-cı ildə Gürcüstanın Qori şəhərində Zaqafqaziya Müəllimlər Seminariyası açıldı. Çar məmurları müsəlmanların maarifləndirilməsinin inkişaf surətini qorxu və ehtiyatla qarşılayırdılar.

İmperiya idarəçiləri yeni tipli məktəblərin və "Tatar şöbəsinin" açılmasına mümkün qədər müqavimət göstərsələr də, Azərbaycan ziyalılarının ciddi cəhdi qarşısında məcburiyyət qarşısında razılıq vermişlər. Həm də yerli əhali arasından savadlı kiçik məmurların çatışmazlığı problemi də həll olunmamışdı. Amma çar məmurları "Tatar şöbəsinin" Azərbaycan torpaqlarından uzaq bir yerdə açılmasını tələb etdilər. Səbəb kimi müsəlman dindarlarının seminariyanın fəaliyyətinə maneə və müqavimət göstərməsi dəlilini əsas gətirmişlər. Bu sadəcə bura müsəlman gənclərin cəlb olunmasını əngəlləmək idi. Əslində Mirzə Fətəli Axundovla birlikdə müfti Əbdülhəmid Əfəndizadə və Şeyxülislam Əhməd Hüseynzadə də Sərdarın yanında keçirilmiş müşavirədə iştirak etmiş, bu mətləbin hasil olunması üçün rica etmişlər. Həmçinin seminariyada şəriət və ana dilini tədris etmək üçün Ə.Axundzadə və müfti Ə.Əfəndizadə dəvət olunmuş, onlar da məmnuniyyətlə bu dəvəti qəbul etmişlər. Bu faktorların özü çar məmurlarının gətirdiyi dəlilin əsassız olduğunu göstərir. Axundzadənin belə bir mötəbər seminariyaya dəvət olunması, onun dövrünün savadlı, mütərəqqi baxışlı pedaqoq və maarifçi olmasını göstərir. Qori Müəllimlər Seminariyası Azərbaycan milli pedaqoji fikrinin formalaşmasında xüsusi mərhələ təşkil edir. Seminariya çar hökumətinin ciddi nəzarəti altında fəaliyyət göstərsə də, burada çalışan azərbaycanlı müəllimlər təhsilin məzmununu milli ruhda zənginləşdirməyə çalışmışlar. Əbdüssalam Axundzadənin ana dili və şəriət dərslərində tətbiq etdiyi metodlar şagirdlərin təkcə dini biliklərini deyil, həm də milli özünüdərk və mənəvi dəyərlərini inkişaf etdirməyə yönəlmişdi.

N.Nərimanov Qori seminariyasına həsr olunmuş "Mühüm bir məsələ" seriya məqalələrindən birində orada təhsil aldığı illəri xatırlayaraq yazmışdır: [10, s.32]

*"Türk dili və şəriət müəllimi indiki şeyxülislam cənab axund Molla Əbdüssalam olub. Orada tərbiyə alan müsəlman uşaqlarına böyük nəfələr (fayda) götürürdü. Demək olar ki, indiki hali-nisbə Qori seminariyası xüsusən müsəlman şöbəsi böyük tərəqqidə bulunurdu. Cənab axund Əbdüssalam türk dilinə və şəriət dərslərinə artıq diqqət verirdi. Dərsləri az idisə də vaxtı itirməyib bacardığı qədər ciddi-cəhd edirdi. O vaxt təlim kitabları yox idi. Bununla bərabər gecələr işləyib, gündüz dərsləri üçün hekayələr düzəldirdi. Türk dilində sərf və nəhv öyrədirdi, şəriətdən tarixi müqəddəsdən savayı ən mühüm məsələləri həll edirdi. Qeyri dinlərdən təfavütünü və insani nəfəni söyləyib uşaqların gözlərini açmağa çalışırdı. İnsaf məqamında demək olar ki, Qori seminariyasından elmini tamam edib indi millətpərəst və yainki əli qələm tutan beş-üç nəfər varsa cənab axund molla Əbdüssalamın tərbiyəsinə bağlıdır"* [11; 12].

Qori seminariyasının məzunları sonradan Azərbaycan maarifçiliyinin aparıcı simalarına çevrilmiş, yeni tipli məktəblərin açılmasında və dərsliklərin hazırlanmasında fəal iştirak etmişlər. Bu baxımdan seminariya Azərbaycan təhsil tarixində strateji əhəmiyyətə malik olmuşdur.

Şeyxülislam Məhəmməd Pişnamazzadənin mütərəqqi fikirləri və təhsil sistemində dünyəvi elmlərə üstünlük verməsi çar məmurlarının diqqətini çəkirdi. Axund Məhəmməd Pişnamazzadənin təsisçisi və rəhbəri olduğu "Məktəbül-Xeyriyyə"də tək Azərbaycandan yox, Türkiyədən olan müəllimlər də fəaliyyət göstərirdi. 1900-cü ilin dekabrında tərəqqipərvər əməlinə və maarifçilik fəaliyyətinə görə təqib olunan Axund Məhəmməd Pişnamazzadə Rusiyaya qarşı ixtilaf hazırlamaq və hökumətə qarşı əks-təbliğat aparmaqda təqsirləndirilərək Türkistana sürgün olunub. Məhəmməd Pişnamazzadə sürgündən qayıtdıqdan sonra maarifçilik fəaliyyətini qardaşı Axund Hüseyn Pişnamazzadənin rəhbəri olduğu "Mədrəseyi-Ruhaniyyə"də dərs verməklə davam etdirmişdir.

1954-cü ildən, 12 il Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinə ləyaqətlə rəhbərlik etmiş Şeyxülislam Möhsün Həkimzadə Daşkənd və Buxaradakı İslam institutlarına tələbələr göndərilməsinə nail olmuşdur. O, təbabətin, klassik ədəbiyyatın gözəl bilicisi olduğundan məclislərində bu mövzulara da geniş yer ayırardı. Hələ Sabirabadda olarkən orada baş həkim vəzifəsində çalışan ədib, şair Əli Fəhmi demək olar hər gün onlara gəlib, səhərə qədər klassik ədəbiyyatda mənaları anlaşılmayan beytlərin izahını, bunların Qurani-kərimlə əlaqəsini Şeyxdən öyrənirdi. Həmçinin Şeyx ona Quran ayələrinin açılışını, təfsirini, din tarixini öyrədərdi. Mərhum akademik Xudu Məmmədov elmi məsləhətlər üçün tez-tez Şeyxülislamın görüşünə gedərmiş. Möhsün Həkimzadə şairə Əzizə Cəfərzadənin Quran və İslam tarixi müəllimi olmuşdur.

## Nəticə

*Azərbaycanın elm və mədəniyyətinə yeni prizmadan baxılması, yəni ümumislam elm və mədəniyyətinin tərkib hissəsi kimi araşdırılması müasir elm qarşısında duran mühüm vəzifələrdəndir. Bunun üçün, əlbəttə, elm və mədəniyyətin bilavasitə daşıyıcıları sayılan elmi-tarixi mənbələr, arxiv materialları və əlyazma sərvəti hərtərəfli tədqiq olunmalıdır. Bu cəhətdən Qafqaz Müsəlmanları Ruhani İdarəsi tarixinin, sədr kimi fəaliyyət göstərən şeyxülislamlarının həyat və fəaliyyətinin ayrı-ayrılıqda öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir. Şeyxülislamlar elmi və fəlsəfi görüşlərinin əsas prinsipi olan xalqa xidməti özünə ən yüksək əxlaqi borc hesab edərək, ömürlərini xalqın savadlı, saf, milli-dini ruhda yetişməsinə qulluq etmişdirlər. Onlar həmçinin cəmiyyətin mədəni-maarif, sosial-siyasi həyatında da mühüm rol oynamışdırlar. Əlavə olaraq qeyd etmək lazımdır ki, Azərbaycan maarifçiliyinin inkişafı yalnız ayrı-ayrı şəxsiyyətlərin fəaliyyəti ilə deyil, bütöv bir intellektual mühitin formalaşması ilə bağlıdır. Şeyxülislamlar, müəllimlər, yazıçılar və ictimai xadimlər bir-biri ilə ideya və fəaliyyət baxımından sıx əlaqədə olmuş, milli maarifçilik ənənəsinin əsasını qoymuşlar. Bu irsin sistemli şəkildə araşdırılması, xüsusilə arxiv materialları və əlyazmalar əsasında yenidən qiymətləndirilməsi müasir Azərbaycan elminin qarşısında duran mühüm vəzifələrdəndir.*


رساله عمدة الاحکام
ایکنجی چاپی*
...ی آذربایجان لغتنده عقاید شیعهٔ اثنی عشریه و احکام شرعیهٔ فرعیه
مابنده تألیف اولنوبدر
مؤلفی و ناشری
...المعلمین مکتب ... معلمی عبد السلام آخوند زاده
تقریض
کتاب عقاید شیعه مذهبه موافق تألیف اولنوب اطفال مسلمینه عقاید اصولیه
...سائل فروعیه تعلیمی ایچون غایتده نافع بر کتابدر شیخ الاسلام زاوقفقاس
آخوند میرزا حسن طاهرزاده
باکو بلده سنده طبع اولونمشدر
سنه ۱۳۱۱ هجریه
قیمتی قپیک




**Umdətul əhkam**

**Xətti təliq və nəstəliq**

*p-ISSN: 2410-5600*



تاریخ مقدس انبیا
حصهٔ اول
اثر
عبدالسلام آخوندزاده
معلم شعبهٔ اسلامی مدرسهٔ دار المعلمین قافقاس
آخوند میرزا حسن
سنة ۱۳۱۰ هجریه



جهالت دردینک درمانی
( و تداوی اصولنک شرح و بیانی )

خیلی زماندن بری معنوی مرضلری تشخیص
ایدن تربیه‌لو کمالاتلو ذاتلر هردم صحایف جریده
لرده قطعهٔ قافقاسده ساکن اهالی اسلامیه‌نی و بلکه
عموماً روسیه تبعه‌سی اولان مسلمانلری بر عمده
و باطنی مرضه مبتلی اولدقلرینی تشخیص و تبیین ایدوب
مبتلی اولانلری علاج و تداوی یوله دعوت و دلا.
لت ایتمکده‌دورلر. مرض ایسه، مرض جهالت او.
لوب علوم و فنونده و بونلرک ثمره‌سی اولان ثر.
وت مکتسبه‌ده سائر طوایفدن گری و دالده قالمقمز
در. واقعا بو خصوصده ذهنی و ظنلری خطا
به گتمیوب اکلادقلری حق و دوغری و تشخیصلری

**Tarixe müqəddəs ənbiya** **Cəhalət dərdinin dərmanı**

**Ədəbiyyat siyahısı:**

1. Abdullayev, A.M. Azərbaycan dilinin tədrisi tarixindən / A. Abdullayev – Bakı: Maarif – 1966. - 330 s.
2. Axundov, M.F. Əsərləri: [3 ciddə] / M.F. Axundov.– Bakı: Şərq-Qərb, - c. 3.– 2005. – 385 s.
3. Əbilov, (Turan) A.İ. Darülmöminin / A.(Turan) Əbilov. - Bakı: Elm və Təhsil,- 2012.-432 s.
4. İsgəndərli, A., Mövlavi A. Şeyxülislamlığın tarixi / A.İsgəndərli, A.Mövlavi. - Bakı: Elm və təhsil, -2016. - 447 s.
5. Məmmədli, H. Qafqazda İslam və Şeyxülislamlar/H.Məmmədli.-Bakı: "MBM",-2005,180 s.
6. Məmmədov, X. Nəhr gur çeşmələrdən yaranır // - Bakı: Azərbaycan, -2000. №1, -s-177
7. Rəhnulla, S.V. Sovet dönəmində Ruhani İdarəsi // Geo Strategiya. Aylıq ictimai-siyasi, elmi-populyar jurnal, -2012. № 05 (11), sentyabr-oktyabr, -s.68-71
8. Rəhnulla, Y.V. Axund Əhməd Hüseynzadə və onun "Tarixi-Ədəbiyyati –Türki əsəri// Şərqşünaslığın aktual problemləri" Ak.V. Məmmdəliyevin anadan olmasının 70 illiyinə həsr olunmuş Beynəlxalq Elmi Konfransının Materialları,- Bakı: -2012, s.254-255
9. Səttarov, M.M. N. Nərimanov və din / M.M.Səttarov. – Bakı: İrşad, -1995. -62 s
10. Əlyazması /Əlyazmalar İnstitutu حسينزاده شيخ احمد - تاريخ ادبيات تركى
11. حيات. غ. نر ( ن. نريمانوف) مهم برمسئله –. ,۱۹۰۶ ۱۴ايون №۱۲۸
12. حيات. غ. نر ( ن. نريمانوف) – مهم برمسئله . ,۱۹۰۶ ۱۸ايون №۱۳۱

**Sevinj Rahnulla**

**THE VALUE GIVEN TO SCIENCE AND EDUCATION BY THE SHEIKHS OF THE CAUCASIAN SPIRITUAL ADMINISTRATION**

*Summary*

The article briefly examines the contributions to science and education of scholars and educators who became Sheikh-ul-Islams of the Spiritual Administration, who enlightened our people with the light of science and spirituality.

The Sheikh-ul-Islams of the Caucasian Spiritual Administration have devoted their lives to the education of the people in an educated, pure, national-religious spirit. They have also played an important role in the cultural-educational, socio-political life of society. They have been engaged in education in various educational institutions, have written significant works, and have rendered scientific and spiritual service to the people.

***Keywords:*** *Sheikhs of Islam, science, education, manuscripts*

*Akademik* ***Teymur Kərimli*** *tərəfindən çapa tövsiyə olunmuşdur.*